***ALİ MƏCLİSİN İCLASI***

*30 sentyabr 2024-cü il. Saat 10.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini **Bəxtiyar Məmmədov** sədrlik edir.*

**Sədrlik edən.** Hörmətli deputatlar!

Bu gün yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il payız sessiyasının birinci iclası keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclasında 45 deputat iştirak edir.

| **Qeydiyyat** | (saat 10.00 dəq.) |
|---|---|
| İştirak edir | 45 |
| Yetərsay | 31 |

Bildiyiniz kimi, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinə əsasən ən azı 31 deputat parlamentin işində iştirak etməlidir. Buna görə də iclas öz işinə başlamağa səlahiyyətlidir.

Beləliklə, yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin payız sessiyasını açıq elan edirəm.

*(Azərbaycan Respublikasının Dövlət Himni səslənir.)*

İclasın gündəliyinə aşağıdakı məsələlər verilir:

1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qanunvericilik işləri planının təsdiqi.

2. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitə sədrlərinin, sədr müavinlərinin və üzvlərinin seçilməsi.

3. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam komissiyasının yaradılması.

Gündəliyə əlavəsi olan varmı?

Yoxdur.

Deputatlardan kim iclasın gündəliyinin təklif olunan qaydada təsdiq edilməsinə tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur səsləri sayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 10.04 dəq.) |
|---|---|
| Lehinə | 45 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 45 |
| Nəticə: Qəbul edildi | |

**R.Novruzov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim,

Səsvermədə 45 deputat iştirak edir. Lehinə 45, əleyhinə və səs saxlayan yoxdur.

**Sədrlik edən.** Gündəlik qəbul olundu.

Çox sağ olun!

Biz iclasın iş qaydasını müəyyənləşdirməliyik.

Təklif olunur ki, məruzə üçün 20 dəqiqə, çıxışlar üçün 10 dəqiqə, arayışlar üçün 3 dəqiqə vaxt verilsin.

Əlavə təklif varmı?

Yoxdur.

Hörmətli deputatlar!

Gündəlikdə duran birinci məsələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qanunvericilik işləri planının təsdiq edilməsi barədədir.

Bildiyiniz kimi, Ali Məclisin fəaliyyəti qanunvericilik işləri planı əsasında qurulur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 8-ci maddəsinə əsasən, növbəti sessiyanın ilk iclasında qanunvericilik işləri planı təsdiq olunmalı və Ali Məclisin iclasları bu plana uyğun keçirilməlidir.

Qanunvericilik işləri planı deputatlara paylanılmışdır. Məsələ ilə əlaqədar deputatlardan çıxış etmək istəyən və ya əlavə təklifi olan varmı?

Yoxdur.

Ali Məclisin 2024-cü il payız sessiyasının qanunvericilik işləri planının təsdiq edilməsi ilə əlaqədar qərar layihəsi hazırlanmış və deputatlara təqdim edilmişdir.

Deputatlardan kim "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il payız sessiyasının qanunvericilik işləri planı haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarının qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur səsləri sayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 10.06 dəq.) |
|---|---|
| Lehinə | 45 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 45 |
| Nəticə: Qəbul edildi | |

**R.Novruzov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Səsvermədə 45 deputat iştirak edir. Lehinə 45, əleyhinə və səs saxlayan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Qərar qəbul edildi.

Gündəlikdə duran ikinci məsələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitə sədrlərinin, sədr müavinlərinin və üzvlərinin seçilməsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 40.1-ci maddəsinə əsasən, Ali Məclisin növbəti çağırışının birinci sessiyasının əvvəlində "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununa müvafiq olaraq Ali Məclisin komitələri yaradılır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 41.3-cü maddəsinə əsasən, Ali Məclisin komitəsinin sədri, onun müavini və üzvləri Ali Məclisin iclasında azı 23 deputatın səs çoxluğu ilə seçilirlər.

Komitələrin tərkibi ilə bağlı qərar layihəsini oxumaq üçün söz Ali Məclis Aparatının Protokol sektorunun müdiri Elşən Yolçuyevə verilir.

Buyurun, Elşən müəllim!

**E.Yolçuyev,** *Ali Məclis Aparatının Protokol sektorunun müdiri.*

Hörmətli deputatlar!

"Naxçıvan Muxtar Respublikası Ali Məclisi komitələri sədrlərinin, sədr müavinlərinin və üzvlərinin seçilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarının layihəsi.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 22-ci maddəsini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara alır:

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin aşağıdakı deputatları müvafiq komitələrin sədrləri, sədr müavinləri və üzvləri seçilsinlər:

**I. Hüquq siyasəti komitəsi**

| | | |
|---|---|---|
| 1. | Əliyev Əjdər Zahid oğlu | -sədr |
| 2. | Şükürov Kamil Qəzənfər oğlu | -müavin |
| 3. | Babayeva Təhminə Adil qızı | -üzv |
| 4. | Həsənova Sevinc Nəsrəddin qızı | -üzv |
| 5. | İsmayılov Mahir İslam oğlu | -üzv |
| 6. | Quliyeva Zeynəb Kərim qızı | -üzv |
| 7. | Məmmədov Üzeyir Səyyad oğlu | -üzv |
| 8. | Məmmədzadə Vüsal Əziz oğlu | -üzv |
| 9. | Nəbiyev Ramil Paşa oğlu | -üzv |
| 10. | Zeynalov Təbriz Eyvaz oğlu | -üzv |

**II. İqtisadi siyasət komitəsi**

| | | |
|---|---|---|
| 1. | Şıxəliyev Emin Arif oğlu | -sədr |
| 2. | Bayramov Mübariz Rəcəb oğlu | -müavin |
| 3. | Novruzov Rafiq Novruz oğlu | -üzv |
| 4. | Abbasov Əli Feyzulla oğlu | -üzv |
| 5. | Babayeva Aynur Arif qızı | -üzv |
| 6. | Canməmmədov Canməmməd Ramiz oğlu | -üzv |
| 7. | Məmmədov Bəhruz Qibləli oğlu | -üzv |
| 8. | Məmmədov Mövlan Ələddin oğlu | -üzv |

9. Məmmədov Məmməd Kərəm oğlu -üzv
10. Nəcəfsoy Pərvin Vidadi qızı -üzv

**III. Sosial siyasət komitəsi**

1. Əliyeva Nuray Yadigar qızı -sədr
2. Novruzov Azad Sevindik oğlu -müavin
3. Allahverdiyeva Həbibə Rəşad qızı -üzv
4. Hacıyeva Sevil Məhəmmədəli qızı -üzv
5. Həşimov Əli Həsənqulu oğlu -üzv
6. Qənbərov Qafar Tahar oğlu -üzv
7. Məmmədov Ramiz Gülməmməd oğlu -üzv
8. Məmmədova Xumar Şəmsi qızı -üzv
9. Rzayev Teymur Yaqub oğlu -üzv
10. Orucova Xəzəngül Yunis qızı -üzv
11. Orucov Asəf Yunis oğlu -üzv

**IV. Humanitar siyasət komitəsi**

1. Bayramova Ülkər İmamqulu qızı -sədr
2. Qasımov Əziz Kamal oğlu -müavin
3. Tarverdiyeva Gülxarə Budaq qızı -üzv
4. Abdullayev Qəzənfər İsmayıl oğlu -üzv
5. Cəfərov Rauf Mehralı oğlu -üzv
6. Əhmədova Gülxarə Mənaf qızı -üzv
7. Əhmədova Şəhla Hüseyn qızı -üzv
8. Dünyamalıyeva Aysel Məmməd qızı -üzv
9. Xudiyev Rza Əli oğlu -üzv
10. Məmmədov Nazim Məmməd oğlu -üzv
11. Rüstəmova Gülşad Qəzənfər qızı -üzv
12. Rzayev Elmar İlqar oğlu -üzv

**Sədrlik edən.** Çox sağ olun!

Qərar layihəsi ilə əlaqədar deputatlardan çıxış etmək istəyən və ya əlavə təklifi olan varmı?

Yoxdur.

Deputatlardan kim qərarın oxunan qaydada qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur səsləri sayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 10.10 dəq.) |
|---|---|
| Lehinə | 45 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 45 |
| Nəticə: Qəbul edildi | |

Rafiq müəllim, buyurun!

**R.Novruzov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Səsvermədə 45 deputat iştirak edir. Lehinə 45, əleyhinə və səs saxlayan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Qərar qəbul edildi.

Gündəlikdə duran üçüncü məsələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam komissiyasının yaradılması haqqındadır.

İntizam komissiyasının tərkibinə aşağıda adı çəkilən deputatların namizədliyi təklif olunur:

1. Bayramova Ülkər İmamqulu qızı
2. Qasımov Əziz Kamal oğlu
3. Məmmədov Bəhruz Qibləli oğlu
4. Şükürov Kamil Qəzənfər oğlu
5. Məmmədov Üzeyir Səyyad oğlu

Müzakirə olunan məsələ ilə əlaqədar qərar layihəsi hazırlanmışdır.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 46.1-ci maddəsinə əsasən, qərara alır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam komissiyası aşağıdakı tərkibdə yaradılsın:

1. Bayramova Ülkər İmamqulu qızı
2. Qasımov Əziz Kamal oğlu
3. Məmmədov Bəhruz Qibləli oğlu
4. Şükürov Kamil Qəzənfər oğlu
5. Məmmədov Üzeyir Səyyad oğlu

Qərar layihəsi ilə əlaqədar deputatlardan çıxış etmək istəyən və ya əlavə təklifi olan varmı?

Yoxdur.

Deputatlardan kim "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam komissiyasının yaradılması haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarının qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur səsləri sayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 10.12 dəq.) |
|---|---|
| Lehinə | 45 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 45 |
| Nəticə: Qəbul edildi | |

Buyurun, Rafiq müəllim!

**R.Novruzov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Səsvermədə 45 deputat iştirak edir. Lehinə 45, əleyhinə və səs saxlayan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qərar qəbul edildi.

Bununla da yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il payız sessiyasının birinci iclası öz işini başa çatdırdı.

Sağ olun!